# Ziyalıların birliyi - Cəmiyyətin birliyi



**Şəddat CƏFƏROV**

*“Bakı mətbəəsi”nin direktoru, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, yazıçı, jurnalist*

Mən adətən bizim mətbəədə nəşr olunan kitablar haqqında rəylər yazmağı özümə mənəvi borc bilirəm. Çünki hər hansı bir kitab mətbəəyə gələndə mənim əlimdən keçir. Hələ kitab olmamışdan məzmunu ilə tanış oluram. Müəllifini öyrənirəm. Çapa verilən kitabın məzmunu ilə tanış olduqca müəllif təfəkkürünün dərinliyinə varıram, eləcə də kitabın tərənnüm etdiyi ədəbi qəhrəmanının tale yolunu izləmək də mənim üçün çox maraqlı olur. Bu dəfə müəllifini yaxşı tanıdığım, aramızda dostluq münasibətləri ilə ciddi ünsiyyət bağlantıları olan Yadulla Ağazadənin yeni bir kitabı haqqında yazmağı qərara aldım. Bu, “Professor Məsud Mahmudov - 70” seriyasından buraxılan “Ömür kitabından səhifələr” əsəridir.

Qabaqcadan onu deyim ki, bu yazının sifarişçisi “Kredo” qəzeti redaksiyasıdır. Mən də “Kredo” qəzetində redaksiya heyətinin üzvü olduğum üçün sifarişi məmnuniyyətlə qəbul etdim. Axı həm də professor Yadulla Ağazadə Azərbaycan təbiətinin mirvarisi olan Lənkəran mənəvi mühitinin yetirməsi görkəmli alim Məsud Mahmudovdan bəhs etdiyi kitabında mənim üçün də doğma olan yerləri çox böyük sevgi ilə tərənnüm edir.

Məsud Mahmudov 1951-ci ildə Lənkəran rayonunun Boladi kəndində anadan olub. İlk təhsilini də müəyyən mərhələyə qədər Lənkəranda alıb. Və bundan sonra onun həyat yolu əlbəttə, dünyamızın ən gözəl şəhəri olan Bakı mühitindən keçir. Yadulla Ağazadə “Ömür kitabından səhifələr”i yazıya almaq üçün orijinal forma seçir. Bunu elə kitabda əhatə olunan yazıların başlıqlarından da başa düşmək olar.

Birinci başlığa diqqət edək: “Ön söz əvəzi, yaxud Məsud Mahmudov tanınmışların, həmkarlarının və dostlarının gözündə və sözündə” adlanır. Kitab başlayan kimi müəllif özünün düşüncələrini təqdim edir. Bu essevari düşüncələr lirik duyğularla qələmə alınıb. Müəllifin ədəbi qəhrəmanına sevgisi ilə süslənmiş həmin parçaları olduğu kimi yazıya gətirmək çox yaxşı olardı. Ancaq oxucu mənəvi mühitinə bu təsirli parçalardan ancaq bir neçə cümləni gətirməklə fikrimə dayaq tutmaq istəyirəm: “İnsanı tam oxumaq, tam duymaq çox çətindir, bəlkə də buna ehtiyac yoxdur. Ona görə də professor Məsud Mahmudova həsr olunmuş bu kitabı ömür kitabı yox, ömür kitabından səhifələr adlandırmaq daha düzgün olardı. Bu kitab onun bütün ömür yolu deyil, yaşadığı mənalı ömrün fraqmentləri, ayrı-ayrı səhifələridir”. Doğru deyir professor. Ancaq bu kitaba toplanmış və ədəbi qəhrəmanın mənəvi mühitini əks etdirən fraqmentlərin hər biri Məsud Mahmudov kimi görkəmli alimin zəngin mənəvi aləminə işıq salır. Bundan sonra müəllif akademik Bəkir Nəbiyevin, akademik Ağamusa Axundovun, akademik R.Q.Piotrovskinin, akademik Vasim Məmmədəliyevin, akademik Tofiq Hacıyevin, akademik Cəlal Allahverdiyevin, əməkdar elm xadimi Qəzənfər Kazımovun, professor Nadir Məmmədlinin və digərlərinin Məsud Mahmudov haqqındakı bəzən geniş, bəzən müxtəsər qeydlərini təqdim edir. Maraqlıdır ki, bütün qeydlərdə, hətta ən müxtəsər qeydlərdə belə Məsud Mahmudovun mükəmməl obraz görünür. Bunun da səbəbi var. Və bu səbəb də ondan ibarətdir ki, Məsud Mahmudov həm şəxsiyyəti, həm də elmi-bədii yaradıcılığı ilə elmi-mənəvi mühitimizdə tam mükəmməlliyi ilə görünə bilir. Müəllif təqribən bu tipli qeydlərə kitabın əvvəlində əlli səhifədən çox yer ayırır. Zənnimcə, bu da uğurlu bir təqdimatdır. Çünki məşhur bir misal var, deyirlər ki, dostunu göstər, sənin necə adam olduğunu mən özüm deyərəm. Azərbaycanın çox tanınmış ziyalılarının, eləcə də dünya elminin görkəmli nümayəndələrinin Məsud Mahmudovu belə yaxşı tanımaları, onun elmi fəaliyyətinə yüksək dəyər vermələri, əlbəttə, mənim də qəlbimi qürur hissi ilə doldurur.

Məsud Mahmudov kimi obrazları ətraflı,dərindən müşahidə edəndə ilk gəncliyimi keçirdiyim doğma yerlərin bizə nə verdiyini bir daha dərk edirəm. Hesab edirəm ki, Məsud Mahmudovun mənəvi saflığı və təmizlik keyfiyyətləri nə qədər onun ailə mühitindən, nəslindən gəlirsə, bir o qədər də doğma yerlərin təbiətindən gəlir. Bundan sonra müəllif Məsud Mahmudov haqqında tədqiqatlarını iki fəsil əhatəsində ümumiləşdirir.

Birinci fəsil “Ömür kitabının səhifələri” adlanır. Bu fəsildə müəllif iki iri həcmdə yazı verir. “Şəhərə bənzəyən kəndin nağılı” və “Hər insan bir kitabdır”.

Bu yazılarda da müəllif elmi yanaşma ilə bahəm obrazın geniş oxucu əhatəsində yaxşı qavranılması üçün publisistik üslubdan da bəhrələnir. Bu yazılardakı kənd motivi, onun təbiəti, ləyaqətli ailə, ailənin həyat qayğıları kifayət qədər bədii çalarlarla təsvirə gətirilir.

Yadulla Ağazadə görkəmli ədəbiyyat mütəxəssisidir. Xüsusilə onun yaxşı tanıdığı, mühitində olduğu elm və ədəbiyyat xadimlərini yazması təqdirəlayiqdir. Yadulla Ağazadənin Mirhaşım Talışlı, Məmmədhüseyn Əliyev, Şəkər Aslan, eləcə də müasirlərimiz olan bir çox yazıçıları tədqiq etməsi, onların haqqında kitablar, elmi məqalələr yazması sübut edir ki, o, bir ziyalı olaraq öz missiyasını yaxşı dərk edir. Ən azı ayrıca bir mövzu kimi işlədiyi “Hər insan bir kitabdır” aforizm səviyyəsində olan ifadəsi ilə sübut edir ki, insanı öyrənmək, onun üstün keyfiyyətlərini yazıya gətirmək bütövlükdə cəmiyyətə xidmətdir.

Kitabda ikinci fəsil “Elmimizin barı tükənməyən ağacı” adlanır. Bu fəsildə də müəllif iki geniş yazı verir: “Məsud Mahmudovun elmi hünəri” və “Riyazi dilçilikdən poetik düşüncəyə qədər”. Burada biz Məsud Mahmudovu artıq görkəmli bir alim kimi daha yaxından tanımalı oluruq. Eyni zamanda Məsud Mahmudovun bədii yaradıcılığına da müəllif kifayət qədər yer ayırır.

Məsud Mahmudovun lirik şeirlərini oxuyanda onun nə üçün indiyədək şair kimi tanımadığıma təəssüf etdim. Əlbəttə, bunun bir tərəfdən günahı da elə onun özündədir. Çünki vaxtında, məqamında sağlam ruhlu şeirlərini oxuculardan örtülü saxlamasaydı, biz onu həm də görkəmli şair kimi yaddaşımızın önündə görə bilərdik. Bir parçanı oxucular üçün təqdim etməkdən çəkinmədim:

“Atıb gedərəm səni -  
ürəyimin bir parçasını  
qoparıb atan kimi...  
Unudaram səni -  
ürəyimdə bir dünyalıq kədər.  
Unudaram səni -  
gücüm çatan qədər.  
Yaşayaram sənsiz -  
duyğusuz, hissiz, sevgisiz,  
Yaşayaram sənsiz -  
ünvansız, adsız, yaddaşsız,  
Torpaq altda,  
qəbr evində,  
başdaşısız.  
Ora məni aparır  
sənsizlikdən başlanan yol,  
Təki sən xoşbəxt yaşa,  
təki sən xoşbəxt ol!”

Bu, insan həssaslığının güzgüsü olan həzin sətirlərin arasından, insan qəlbinin dərinliklərindən gələn kövrək pıçıltıları eşitməmək mümkün deyil. Kitabda Məsud Mahmudovun poeziyasına kifayət qədər yer ayrılıb. Və bu kitabı oxuyan, vərəqlərini çevirən hər kəs onun necə həzin, duyğulu bir şair olduğuna da həmişəlik inanar.




Müəllif öz kitabında Məsud Mahmudovun həyat salnaməsini əks etdirən dəqiq tarixi ayları, günləri də əhatəli şəkildə təqdim etmişdir. Həmin xronikada biz Məsud Mahmudovun əhatəli yaşam yolunu, elmi mühitdəki uğurlarının tarixlərini minnətdarlıq hissi ilə oxuyuruq. Nəhayət, axırıncı əlamətdar tarix belə qeyd olunur: “2019 - Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə ekspert şurasının üzvü”. Bu artıq onun elmi mühitdə nüfuzunun göstəricisidir. Mötəbər məqamdır. Fəxarət duyulası məqamdır.

Bundan sonra Yadulla Ağazadə müəllifin elmi əsərlərinin, çox dəyərli kitablarının da xronikasını təqdim edir: “Elektron hesablayıcı maşınlar dilçilikdə” (1977), “Bitişik, yoxsa ayrı” (1987, şərikli), “Azərbaycanca-Rusca, Rusca-Azərbaycanca lüğət” (1991, şərikli), “Kitabi Dədə Qorqud dastanlarının statistik təhlili” (1997, şərikli), “Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili” (1999, şərikli), “Mənim doğma institutum, mənim əziz həmkarlarım” (2001), “Mətnin forma təhlili sistemi”(2002), “Rumunca-Azərbaycanca, Azərbaycanca-Rumunca lüğət” (2004, şərikli), “Azərbaycan qəzet dilinin tezlik lüğəti” (2004, şərikli), “Məhəmməd Füzulinin nəzm əsərlərinin əlifba tezlik sözlüyü” (2004, şərikli), “Professor Əbülfəz Rəcəbli fenomeni və ya öz oduna əriyən şam” (2007), “Kompyüter dilçiliyi” (2013), “Türk dillərinin milli korpusları” (2018)... bütün bunlar Məsud Mahmudovun kitablarının tam olmayan siyahısıdır. Yadulla Ağazadə hər bir kitabın səhifə həcmini göstərdiyinə görə biz belə bir qənaəti də bildirə bilərik. Məsud Mahmudovun yazdığı kitabların ümumi səhifə həcmi 15 min səhifədən çoxdur. Bu da onu göstərir ki, Məsud Mahmudov çox gərgin işləyən alimdir. Hələ onun elmi məqalələrinin, rəyçisi olduğu elmi əsərlərin, redaktorluğu ilə nəşr olunan kitabların siyahısına da nəzər salsaq, necə yorulmadan çalışdığını da təsəvvür etmək mümkündür.

Məsud Mahmudov haqqında mətbuatda çox yazılır. Kredo qəzetində dostum Əli Rza Xələflinin “Zəka işığında ömür yolu” adlı portret essesində oxuyuram: “İnamla deyirəm, bəzən hətta yaxından ünsiyyətim olmayan adamları da özümə çox doğma bilirəm, dost bilirəm. Məsud Mahmudovla gec-gec görüşürəm. Baxmayaraq ki, gec-gec görüşürəm, ancaq onu özümə çox yaxın, doğma bilirəm, dost bilirəm”. Dostumun bu qeydləri elə mənim düşüncələrimlə üst-üstə düşür. Həqiqətən mən də Məsud Mahmudovla gec-gec rastlaşıram. Tədbirlərdə, yığıncaqlarda isti görüşlərimiz olmasa da onu müşahidə etmək imkanım olur. Görürəm ki, insan təbiəti üçün ən üstün keyfiyyətlər - təvazökarlıq, abırlılıq... onun simasını özündən, sözündən əvvəl təqdim edir. Və dostumun “Kredo” qəzetində yazdığı sözlərə mən də şərik oluram: “Təbiəti gözlərindən görünür. Sakit, aydın və duru baxışları ilə bütün varlığını təqdim edə bilir. Böyük zəhməti ilə qibtə doğuracaq sərvət qazanıb. Bu onun yüksək dəyərlərə malik elmi əsərləridir”. Bircə əlavəm var. Elə şəxsiyyətinin bütövlüyü ilə də Məsud Mahmudov cəmiyyətimiz üçün dəyərli sərvətdir.

Nəfis şəkildə çap olunmuş “Professor Məsud Mahmudov - 70” kitabının (2021) məsləhətçisi mərhum Mirhaşım Talışlıdır. Redaktor filologiya elmləri doktoru, professor İlham Tahirov, rəyçilər filologiya elmlər doktoru, professor Kamilə Vəliyeva və filologiya üzrə fəlsəfə doktoru ,dosent Könül Həbibovadır.

Annotasiyada belə bir qeyd var: filologiya üzrə elmlər doktoru, professor Yadulla Ağazadənin Məsud Mahmudov haqqındakı kitabında görkəmli Azərbaycan dilçisi, riyazi dilçilik üzrə tanınmış mütəxəssisin ibrətamiz həyat və yaradıcılıq yolundan danışılır. Zənnimcə, bu məlumat da oxucularımız üçün dəyərlidir.

Məsud Mahmudov ziyalı alicənablığı ilə günümüzün tanınan simalarından biridir. Ə.Xələflinin ona həsr etdiyi dördlükdə də görkəmli ziyalının obrazını qavramaq çətin deyil:

“Həqiqət daşa dəysə, doğruda kəsər qalmaz,  
Söz haqqa tapınmasa, yaşarı əsər qalmaz,  
Yaşadığın dünyanın işığı ola bilsən,  
Dağlar qaranlıqlar, zülmətdən əsər qalmaz”.

Doğrudur, bu dördlük Məsud Mahmudova həsr olunub, amma bu dördlüyün bədii obrazı kimi mən həm də Yadulla Ağazadəni görürəm.

Ziyalıların birliyi, cəmiyyətin birliyidir. Uca ziyalı adını daşımaq nə qədər böyük şərəfdirsə, bu şərəfli ada dəyər vermək özü də mənəvi ucalıqdan xəbər verir. Mən hər iki görkəmli alimə bundan sonra da uğurlu həyat və yaradıcılıq yolu arzulayıram.

***27.09.2021***